**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№388/4** **01 iyul 2026-cı il**

**"Mühasibat uçotu və audit üzrə proqram təminatları" barədə**

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər)" 8-ci "İnnovativ auditin genişləndirilməsi" bölməsinin 3-cü "Rəqəmsal iqtisadiyyat və innovasiyların ixtisas tətbiqi sahəsində auditorların ixtisas səviyyələrinin yüksəldilməsi", 4-cü "Auditdə innovasiyaların geniş tətbiqi hesabına auditin və əlaqəli xidmətlərin göstərilməsində texnologiyaların tətbiqi və rəqəmsal yönümlü prosedurların genişləndirilməsi", 5-ci "Auditorların peşəkarlıq səviyyəsinin artırılması üçün yeni onlayn mexanizmlərin müəyyənləşdirilməsi" altbəndlərinin və Palata sədrinin 2026-cı il 17 aprel tarixli 10-1/3-3-16/2026 nömrəli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planının 1-ci "Auditorlar Palatasında çalışan vəzifəli şəxslərin rəqəmsal inkişaf sahəsində səriştələrinin, bilik və bacarıqlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi" və 19-cu "Palata üzvlərinin rəqəmsallaşma səviyyəsinin (o cümlədən əlaqələndirilmiş və sistemli şəkildə) artırılması üçün əməli və metodiki dəstəyin göstərilməsi" bəndlərinin icrası məqsədilə Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov, M.Osmanova və B.Orucov) tərəfindən hazırlanmış "Mühasibat uçotu və audit üzrə proqram təminatları" barədə materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov, B.Orucov) tapşırılsın ki, bir ay müddətində "Mühasibat uçotu və audit üzrə proqram təminatları" barədə material daxil olmuş rəylər və Şura iclasında göstərilən təklif və tövsiyələr nəzərə alınmaqla yenidən işlənib təqdim edilsin.
2. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**